Azərbaycan Barometri / 09

aprel / 2020

# Azərbaycanda pandemiya ilə mübarizə ictimai rəydə

## ANALİTİK HESABAT



SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ**

AZƏRBAYCAN BAROMETRİ
*Doqquzuncu buraxılış*

aprel 2020

# “Azərbaycanda pandemiya ilə mübarizə ictimai rəydə”
# ANALİTİK HESABAT

**Müəlliflər:**
Seymur Əliyev
*Sosial-iqtisadi təhlil departamentinin rəhbəri*
Ayşəm Balayeva
*İctimai rəyin öyrənilməsi departamentinin rəhbəri*

**Tədqiqat qrupu:**
İctimai rəyin öyrənilməsi departamenti
Sosial-iqtisadi təhlil departamenti
Daxili siyasətin təhlili departamenti

Bakı - 2020

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

“Azərbaycan barometri” jurnalı 06 avqust 2019-cu il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 4247 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilib.

**Ünvan:**
Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1006
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Nəşriyyat: “Şərq-Qərb”
Çapa imzalanıb:
Nəşrin ölçüsü:
Fiziki çap vərəqi:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2020

# MÜNDƏRİCAT

GİRİŞ....................................................................................................4

I. Sorğunun metodologiyası................................................................5

II. Azərbaycanda və dünyada cari vəziyyətin analoji
tədqiqatlarla müqayisəli təhlili...................................................6

III. Sorğunun nəticələrinin statistik və analitik təhlili.......................10

NƏTİCƏ..............................................................................................19

# GİRİŞ

Tədqiqatlar göstərir ki, pandemiyalar (qeydə alınmış Antonin vəbasından COVID-19-a qədər) müxtəlif tarixi dövrlərdə bəşəriyyət üçün fərqli istiqamətlər üzrə miqyas etibarilə dramatik təsirlərlə müşahidə edilmişdir. Əksər pandemiyalar istər milli, istərsə də qlobal kontekstdə tarixin dönüş nöqtəsi kimi dəyərləndirilir. Bu da bir faktdır ki, pandemiyalar bu gün də ölkələr üçün ciddi risk faktoru kimi qalmaqdadır (COVID-19 pandemiyası nümunəsində). Digər tərəfdən prosesin sosial-iqtisadi maliyyəti milyonlarla insanın ölüm riski ilə qarşı-qarşıya qalmasından qaynaqlanan sosial-psixoloji sarsıntı və dərin iqtisadi böhranlarla ölçülür.

Son dövrlər dünyanın gedişatını əhəmiyyətli dərəcədə dəyişə bilən və proseslərin hansı məcrada inkişaf edəcəyi ilə bağlı qısa və ortamüddətli dövr üçün qeyri-müəyyənliyin pik səviyyəyə yüksəlməsinə səbəb olan koronavirus ailəsinin üzvü, Ümumdünya Səhiyyə Təşkilatının pandemiya elan etdiyi COVID-19 epidemiyası bir növ ölkələrin siyasi, sosial-iqtisadi və infrastruktur potensialını test etməkdədir.

Qlobal miqyasda müşahidə edilən pandemiya törəmə böhranlara (neft böhranı, iqtisadi böhran və s.) səbəb olmaqla ölkələrin anti-böhran strategiyalarında da ciddi dəyişikliklərlə xarakterizə edilir.

Belə ki, yaranmış vəziyyət dünya birliyinin kollektiv qabaqlayıcı tədbirləri ilə yanaşı, ciddi selektiv preventiv siyasətlərin ön plana çıxması və mahiyyət etibarilə ikinci yanaşmanın üstünlüyü ilə müşahidə olunur. Digər tərəfdən qloballaşan dünya çox çevik bir şəkildə milli sərhədlər çərçivəsində görünməmiş izolyasiyaya məruz qalıb.

Qlobal miqyasda yaranmış fors-major situasiya şəraitində milli maraqlar kontekstdindən çıxış edən ölkə rəhbərliyi hələ virus (COVID-19) pandemiya elan edilmədən öncə mümkün risklərə adekvat qərarlar verməklə təhdidlərə yönəlik sistemli qabaqlayıcı tədbirlərin konturlarını müəyyənləşdirmiş oldu.

Ölkə rəhbərliyinin COVID-19 pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması istiqamətində həyata keçirdiyi strateji tədbirlər öz sistemliliyi və verilmiş bütün qərarların mərkəzində Azərbaycan vətəndaşının təhlükəsizliyi, sağlamlığı və rifahının yüksəldilməsinin təmin edilməsi məqsədinin dayanması xüsusilə qeyd edilməlidir.

Dövlət başçısının sərəncamı ilə bu ilin əvvəlində Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargah cari vəziyyətin nəzarət altında saxlanılması ilə yanaşı post pandemiya dövrünə yönəlik çağırışları da özündə əks etdirən tədbirlər planını məqsədyönlü şəkildə icra edir.

19 mart 2020-ci ildə Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində demişdir:

"Mənim göstərişimlə yanvarın 24-dən Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Bu qərargah 24 saat işləyir, bütün dövlət qurumlarının fəaliyyətinə rəhbərlik edir, xəstəliklə bağlı bütün işləri nəzarətdə saxlayır və bu işləri əlaqələndirir*."

Pandemiya ilə mübarizə istiqamətində optimal siyasət koordinasiyası və böhran kommunikasiyasının effektiv şəkildə reallaşdırılması dövlət idarəetməsində çeviklik və vizyonun göstəricisi kimi qiymətləndirilməlidir.

Bütün bu qeyd etdiklərimizlə yanaşı Azərbaycan pandemiya ilə mübarizədə beynəlxalq müstəvidə də məqsədyönlü fəaliyyəti ilə fərqlənməkdədir. Belə ki, ölkəmiz COVID-19 pandemiyası ilə mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə qarşılıqlı əməkdaşlıq şəraitində çalışır. Məhz bu əməkdaşlıq çərçivəsində təşkilatın mütəxəssisləri Azərbaycana dəvət edilmiş ekspert missiyasının tövsiyyələri milli fəaliyyət strategiyasında ciddi şəkildə nəzərə alınmışdır. Digər tərəfdən ölkəmiz qlobal həmrəylik nümayiş etdirərək Ümumdünya Səhiyyə Təşkilatının strateji hazırlıq və cavab planı çərçivəsində COVID-19 Fonduna könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutan donor sazişi imzalamışdır.

Eyni zamanda məhz belə həssas dönəmdə dövlət başçısı İlham Əliyev cənablarının təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilmiş və görüş çərçivəsində pandemiya ilə mübarizədə qlobal əməkdaşlığın vacibliyi xüsusilə vurğulanmışdır.

Bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, Azərbaycan pandemiya ilə mübarizədə xüsusilə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nümunəvi ölkə kimi dəyərləndirilmişdir.

"Azərbaycanda pandemiya ilə mübarizə ictimai rəydə" analitik təhlil sənədi Sosial Tədqiqatlar Mərkəzi tərəfindən 19-28 mart 2020-ci il tarixlərində ölkə miqyasında həyata keçirilən sosioloji sorğunun nəticələrini özündə əks etdirir.

*https://president.az/articles/36212*

# SORĞUNUN METODOLOGİYASI

**Respondentlərin seçimi:**

❖ Keçirilən ictimai rəy sorğusunda ümumilikdə 1212 respondent iştirak edib.

❖ İctimai rəy sorğusu klaster seçmə metoduna əsaslanıb. Ümumilikdə, ölkə üzrə seçilmiş ünvanlarda 101 klaster təsadüfi seçim əsasında müəyyən edilib

❖ Sorğunun nəticələri 95% əminlik intervalı, statistik xəta əmsalının 3% olması nəzərə alınaraq təhlil edilib.

❖ Sorğu 19-28 mart 2020-ci il tarixlərdə keçirilib.

**Regionlar.** Sorğu aşağıdakı iqtisadi-coğrafi rayonlarda keçirilib: Bakı, Abşeron, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Lənkəran. Sorğu Naxçıvan Muxtar Respublikası və işğal edilmiş regionların ərazisi istisna olmaqla bütün ölkəni əhatə edib.

## Sorğunun aparılması üsulu

Sorğunun aparılmasında telefonla müsahibə üsulundan istifadə olunub. Mərkəz əməkdaşları tərəfindən respondentlərin stasionar telefon nömrələrinə gün ərzində saat 12:00-21:00 aralığında zənglər edilib.

## Məlumatların işlənilməsi və təhlili

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə toplanılan məlumatlar bazaya daxil edilərək xüsusi proqram SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib.







Dəyişənlər arasında statistik əhəmiyyətli əlaqənin tapılması üçün korrelyasiya təhlilindən, müxtəlif sosial-demoqrafik qruplar arasında dəyişənlərin müqayisəsi üçün $X^2$ və ANOVA testindən istifadə edilib.

## Anketin strukturu

Anket 15 əsas, 4 demoqrafik sualdan ibarət olub. Suallar əsasən aşağıdakı istiqamətlərdə olub:

- COVID-19 epidemiyası ilə fərdi mübarizə istiqamətlərinə münasibət. Yoluxma qorxusu və karantin şəraitində müayinəyə (özü və yaxınlarının) münasibət;

- Dövlətin COVID-19 pandemiyası ilə mübarizə siyasətinə münasibət, TƏBİB-in bu istiqamətdə fəaliyyətinin qiymətləndirilməsi




***Qeyd:*** *Yuvarlaqlaşdırma səbəbindən diaqramlarda faizlərin cəmi 100%-dən fərqli ola bilər.*

# II. COVID-19: CARİ VƏZİYYƏT VƏ SORĞU NƏTİCƏLƏRİNİN ANALOJİ TƏDQİQATLARLA MÜQAYİSƏLİ TƏHLİLİ

*(milli və beynəlxalq kontekstdən yanaşma)*

Ümumiyyətlə yolxucu xəstəliklərlə mübarizə dövlətin sosial siyasət istiqamətlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir. Praktika göstərir ki, bəzən bu kimi xəstəliklərlə mübarizədə lokallaşdırma mümkün olmadıqda Ümumdünya Səhiyyə Təşkilatı prosesə müdaxilə edərək onu pandemiya elan edir. Proseslərin bu istiqamətdə cərəyan etməsi yaranmış situasiyanın mürəkkəblik səviyyəsindən asılı olaraq problemə həm də milli təhlükəsizlik predmeti kimi yanaşmanı tələb edir.

Məhz pandemiya şəraitində yoluxma və ölüm hallarının (sayının) gözləntilərdən yüksək olma ehtimalını diqqət mərkəzində saxlayaraq, bütün səhiyyə xidmətlərinin effektiv koordinasiyası zəruriləşir.

Yaranmış qlobal təhdidə adekvat olaraq COVID-19 pandemiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət Operativ Qərargah yaradılmışdır. Operativ Qərargah dərhal qabaqlayıcı tədbirlərin görülməsi və Azərbaycan Respublikasının bütün ərazilərində monitorinqin aparılması üçün aidiyyəti sahə mütəxəssislərindən ibarət ekspert qrupları təşkil etmişdir. Bütün bunlarla yanaşı, Nazirlər Kabinetinin sərəncamı ilə 2020-ci il 30 yanvar tarixində “Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı” təsdiq edilmişdir və nəzərdə tutulmuş tədbirlər həyata keçirilməkdədir. Qeyd olunan xəstəliyin yayılma coğrafiyasının geniş miqyas aldığını nəzərə alaraq, Nazirlər Kabineti tərəfindən daha geniş əhatəli Tədbirlər Planı təsdiq edilib və hal-hazırda ölkə başçısının birbaşa nəzarəti altında icra edilməkdədir.

Azərbaycanda COVID-19 infeksiyasına ilk yoluxma faktı 28 fevral 2020-ci il tarixində qeydə alınmışdır. Ölkə üzrə infeksiyaya yoluxma ilə bağlı cari vəziyyət və yoluxanların regionlar üzrə coğrafi bölgüsü aşağıdakı infoqrafikada öz əksini tapmışdır.




*İnfoqrafika 1. https://koronavirusinfo.az/az/page/statistika/azerbaycanda-cari-veziyyet (12.04.2020 ci il tarixinə olan rəsmi məlumatlardır.)*

Ölkəmizdə COVID-19 pandemiyasının mümkün təsirlərinin azaldılması sahəsində reallaşdırılan anti-böhran strategiyasının əsas şüarı dövlət başçısı tərəfindən "Biz birlikdə güclüyük!" kimi müəyyənləşdirilməklə Dövlət - Vətəndaş - Biznes əməkdaşlığı formatı üzərindən reallaşdırılır.

Mahiyyət etibarilə COVID-19 pandemiyası hər üç tərəf üçün bir növ dayanıqlılıq sınağı kimi qiymətləndirilir. Əsas istiqamətlər isə heç şübhəsiz aşağıdakı konteksdədir.

❖ Vətəndaş məsuliyyəti və həmrəyliyi səviyyəsinin test edilməsi;

❖ Dövlət sektorunun çevik və nəticəyönümlü böhran menecmentinin test edilməsi;

❖ Dövlətin vətəndaş və biznes sektoruna dəstək potensialının test edilməsi;

❖ Biznes sektoru üçün böhran menecmenti səviyyəsinin test edilməsi;

❖ Biznes sektorunun sosial məsuliyyətlilik yanaşmaları test ediləcək və s.

Pandemiyanın qlobal miqyasda təsirlərini dəyərləndirsək aşağıdakı statistik tabloya diqqət etmək kifayətdir.

Təhlillər göstərir ki, son bir həftə ərzində COVID-19 pandemiyası ilə bağlı qlobal vəziyyət nisbətən müsbətə doğru dəyişməkdədir. Belə ki, Çin, Yeni Zelandiya və İtaliya kimi ölkələrdə yoluxmaların və ölümlərin sayında azalma tendensiyası müşahidə edilməkdədir. Epidemiyanın ilk dəfə meydana çıxdığı Çinin Uhan şəhərinin sakinləri artıq şəhəri tərk edə bilərlər, hərçənd, məktəblər hələ də bağlı qalmaqdadır. Avstriya, Çexiya Respublikası, Danimarka və Norveçdə hökumətlər daha yumşaq karantin rejimi planlarını hazırlayıblar[1].

Lakin vəziyyətin gərgin qaldığı ölkələr də mövcuddur. Son günlər koronavirusun episentrinə çevrilən ABŞ-da 400 000-ə yaxın yoluxma və 12 740 ölüm (ölüm nisbəti 3%-dən çox) halı qeydə alınıb. Ölkədəki iqtisadi durğunluğu canlandırmaq üçün Federal Ehtiyatlar Sistemi $5.8 trilyondan artıq dəyərində vəsait dövriyyəyə buraxıb. Böyük Britaniyada isə artan yoluxma hallarının fonunda Londonun şərqində 4 000 çarpayıya malik yeni xəstəxana 9 gün ərzində inşa edilib[2]. Ümumdünya Səhiyyə Təşkilatının 9 aprel tarixinə olan məlumatına görə, dünyada 1,537,174 yoluxma, 89,954 ölüm halı qeydə alınıb. Yoluxmaların yarıdan çoxu Avropanın, 1/3 isə Amerika qitəsinin payına düşür.

Business Insider nəşrində təqdim edilən qrafikin təhlili göstərir ki, ölkələrdə yoluxma hallarının başlanğıc tempi olduqca oxşar olsalar da, sonrakı mərhələlərdə yoluxma tempi kəskin dərəcədə fərqlənir. Belə ki, 100-cü yoluxma halının qeydə alındığı gündən etibarən aparılan hesab-




*[1]CNBC (2020. 'Like walking the tightrope-: Some European countries are starting to lift coronavirus lockdown measures. cnbc.com/2020/04/08/coronavirus-some-european-countries-set-to-lift-lockdown-measures.html*

*[2]BBC News (2020) Coronavirus: How NHS Nightingale was built in just nine days https://www.bbc.com/news/health-52125059*

***İnfoqrafika 2.*** *https://koronavirusinfo.az/az/page/statistika/dunyada-cari-veziyyet (12.04.2020 ci il tarixinə olan rəsmi məlumatlardır.)*

lamaya əsasən, 18-ci gündə ABŞ, İtaliya, Almaniya, İran və Böyük Britaniya kimi ölkələrdə qeydə alınan yoluxma hallarının sayı 20 000-dən az idi. Lakin 10 gün sonra bu say ABŞ üçün 240 000, İtaliya, Almaniya, İran və Böyük Britaniya üçün




isə müvafiq olaraq 70 000, 60 000, 30 000 və 30 000 civarında olub. Cənubi Koreya üçün isə bu göstərici demək olar ki, 10 000-dən aşağıdır. Fərqlərin səbəbləri isə müxtəlifdir - karantin rejimlərinin müxtəlifliyi, əhalinin sosial-demoqrafik xarakteristikaları və s.

Ölüm nisbətinə gəlincə isə Avropa və Yaxın Şərq bölgələri ön mövqelərdə dayanır. Avropada yarım milyondan çox yoluxma və 34 000-ə yaxın ölüm halı qeydə alınıb (ölüm nisbəti 6%-dən çox). Yaxın Şərq üçün analoji rəqəm 5.5.%-ə yaxındır. Cənubi Amerika və Şimali Amerika bölgələri üçün isə faiz 3%-dən azdır.

Gallup International[3] tərəfindən Qazaxıstanda 500 nəfər arasında aparılmış sorğunun nəticələrinə əsasən, respondentlərin 53%-i koronavirusa yoluxmaqdan qorxur. 62% Qazaxıstan hökumətinin koronavirusa qarşı gördüyü tədbirləri dəstəkləsə də, fərdi müstəvidə müdafiə tədbirləri görənlərin sayı profilaktik tədbirdən asılı olaraq dəyişir. Respondentlərin 42%-i maska, cəmi 13% isə əlcək taxdığını, 40%-i isə tibbi dezinfeksiya vasitələlri istifadə etdiyini bildirib. 74% əllərini əvvəlkindən daha çox yusa da, evdə daha çox vaxt keçirənlərin göstəricisi 43%-dir ki, bu da əhəmiyyətli bir hissənin sosial təcridetmə prinsipinə əməl etmədiyini göstərir.

Rusiya Federasiyasında analoji sorğu çərçivəsində 1000 nəfərlə aparılmış anket nəticələri göstərir ki, respondentlərin 68%-i koronavirusa yoluxmaqdan qorxur. Cəmi 49% hökumətin koronavirusa qarşı gördüyü tədbirlərdən məmnundur. Respondentlərin çox az hissəsi - 13%-i maska, 6%-i isə əlcək taxır. Alkoqol tərkibli əl təmizləyicisi istifadə edənlərin göstəricisi isə nisbətən yüksəkdir - 23%. Ən geniş yayılan profilaktik tədbir isə əlləri daha yüksək tezliklə yumaqdır - 70%. Rusiyada da evdə daha çox vaxt keçirənlərin göstəricisi bir o qədər yüksək deyil - 35%.

Rusiyada Levada[4] tərəfindən COVID-19 pandemiyası ilə əlaqəli ictimai rəyin öyrənilməsi üçün 1624 respondentin iştirakı ilə mart ayında sorğu keçirilmişdir. Rəyi öyrənilənlərin 44%-i COVID-19 epidemiyasına yoluxmaqdan qorxduğunu bildirmişdir. Fevral ayında keçirilən oxşar sorğunun nəticəsi ilə müqayisədə virusa yoluxma qorxusunun mart ayında 14% artmasını müşahidə edirik. Bundan əlavə, epidemiyanın yayılma təhlükəsinə görə respondentlərin 23%-i ictimai tədbirlərdə iştirak etməkdən imtina edib, 16%-i isə tibbi maskalar alıb. Qoruyucu tibbi maskalar ilə əlaqəli digər məqam odur ki, respondenlər tərəfindən son zamanlar Rusiyada satışda çatışmayan məhsullar kimi ən çox tibbi maskalar qeyd olunub. Maraqlıdır ki, respondentlərin əhəmiyyətli hissəsi (59%) koronavirusla bağlı KİV-də

*[3]Gallup International (2020). The coronavirus: a vast scared majority around the world - Snap poll in 28 Countries by Gallup International Association. gallup-international.com/wp-content/uploads/2020/03/GIA_SnapPoll_2020_COVID_Tables_final.pdf*

*[4]https://www.levada.ru/2020/03/26/pandemiya-koronavirusa/*

*[5]FiveThirtyEight (2020) How Americans View the Coronavirus Crisis and Trump's Response. projects.fivethirtyeight.com/coronavirus-polls/*




yayılan rəsmi məlumatlara şübhə ilə yanaşır. Respondentlərin inamsız olduqları digər məqam səhiyyə sisteminin Rusiyada yarana biləcək koronavirus epidemiyasına hazırlıq dərəcəsidir. Sorğu iştirakçılarının 48%-i ölkədə mümkün koronavirus epidemiyasına səhiyyə sisteminin hazır olmadığını düşünür.

Digər qonşu dövlət Türkiyənin nəticələrinə də nəzər yetirək. 1000 nəfərlə aparılmış sorğuya əsasən, 67% koronavirusa yoluxmaqdan qorxur, 69% isə ölkə rəhbərliyinin koronavirusa qarşı gördüyü tədbirləri dəstəkləyir. Rusiyada olduğu kimi, burada da maska və əlcək istifadəsi olduqca az yayılıb - müvafiq olaraq, 10-20% respondent həmin tədbirlərə əl atır. Alkoqol tərkibli əl təmizləyicisi istifadə edənlərin göstəricisi də olduqca aşağıdır - 14%. Nisbətən daha geniş yayılmış profilaktik tədbir isə əlləri daha yüksək tezliklə yumaqdır - 41%. Narahatedici məqam bundan ibarətdir ki, respondentlərin cəmi 11%-i evdə daha çox qaldığını bildirib.

Maraqlıdır ki, ABŞ-da müxtəlif sorğu mərkəzləri tərəfindən "Ölkə rəhbərliyinin koronavirusa qarşı gördüyü tədbirləri dəstəkləyirsinizmi?" sualı ilə aparılmış sorğularda fərqli nəticələr əldə edilmişdir[5]. 230,000-dən çox respondentlə aparılmış sorğuların nəticələrinin ümumiləşdirilməsi göstərir ki, vətəndaşların 70%-i koronavirusa yoluxmaqdan bu və ya digər dərəcədə qorxur. Maraqlısı odur ki, vətəndaşların yarısı ölkə rəhbərliyinin koronavirusa qarşı gördüyü tədbirləri dəstəkləsə də, respondentin partiya mənsubiyyəti onun fikrinə ciddi təsir göstərir - demokratlar aparılan tədbirlərə dair respublikaçılara nisbətdə əhəmiyyətli dərəcədə narazılıq göstərirlər. Böyük Britaniyada isə əhalinin 52%-i hökumətin atdığı addımları bəyənsə də, 38%-i mövcud karantin rejiminin daha da sərtləşdirilməsini tələb edir[6].

İqtisadi cəhətdən inkişaf etmiş ölkələr üzrə diqqət çəkən iki məqama nəzər yetirmək məqsədəuyğun olardı. Birincisi, Böyük Britaniya, Almaniya, Avstriya, Fransa və İsveçrə kimi ölkələrdə qoruyucu maska taxanların sayı olduqca azdır - 10% civarındadır. Lakin Yaponiya və Cənubi Koreyada bu göstərici müvafiq olaraq 70% və 94%-ə bərabərdir. İkincisi isə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə "evdə qal" kampaniyasına qoşulanların sayı inkişaf etməkdə olan ölkələrə nisbətdə əhəmiyyətli dərəcədə yüksəkdir. Görünür, əhalinin əl atdığı əsas profilaktik tədbir evdə qalmaq olduğundan, onlar maska və əlcəkdən bir o qədər istifadə etmirlər.

Qlobal sorğularda da müqayisə edildikdə,məlum olur ki, Azərbaycanla bağlı tədqiqatlarda ictimai rəyin dövlət siyasətindən razılıq səviyyəsi yüksək olması və Ermənistanla müqayisədə Cənubi Qafqaz regionunda üstün mövqedə durması reallıqdır.

*[6]YouGov (2020). For the first time in nearly a decade, Britain approves of its government. yougov.co.uk/topics/health/articles-reports/2020/04/03/COVID-19-four-ten-brits-think-we-need-tougher-lock.*

# III.SORĞUNUN NƏTİCƏLƏRİNİN STATİSTİK VƏ ANALİTİK TƏHLİLİ

COVID-19-un pandemiya elan edilməsindən sonra istisnasız bütün dövlətlər bu və ya digər şəkildə səhiyyə şokları ilə qarşı-qarşıya qalmışdır. Nəticə etibarilə COVID-19 ilə mübarizə çərçivəsində dövlət tədbirləri ilə yanaşı, şəxsi təhlükəsizlik tədbirlərinin reallaşdırılması zəruriləşib. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə fərdi mübarizəni ən effektiv üsul hesab edir.

Məsələyə məhz bu kontekstdən yanaşdıqda ölkəmizdə rəyi öyrənilənlərin əhəmiyyətli hissəsi (44.9%) COVID-19-a yoluxmaqdan heç qorxmadığını qeyd etdiyi halda 25.6%-i çox qorxurduğunu, 27.5%-i isə az qorxduğunu bildirib. COVID-19-a yoluxmaqdan qorxanlarla (53.1%) qorxmayanların (44.9%) nisbəti demək olar ki, bərabərdir (2% cavab verməkdə çətinlik çəkən respondentlər istisna olmaqla).

Təhlillər göstərir ki, təhsil səviyyəsi ilə virusa yoluxma qorxusu arasında nəzərəçarpacaq əlaqə mövcuddur ($X^2(4)=30.593$, $p<0.01$). Belə ki, tam orta təhsilli respondentlər (51.2%) ali təhsillilərlə (27.3%) müqayisədə virusa yoluxma ehtimalından daha çox qorxduğunu qeyd ediblər. Maraqlı məqam ondan ibarətdir ki, yoluxma riskindən “heç qorxmuram” deyənlər arasında tam orta təhsilli respondentlər üstünlük təşkil edir (56.5%). Rəyi öyrənilənlərin ərazi bölgüsü üzrə təhlili bizə onu deməyə əsas verir ki, şəhərdə yaşayan respondentlər (57.4%) qəsəbə (15.2%) və kənddə (27.4%) yaşayanlarla müqayisədə COVID-19-a yoluxma riskindən daha çox qorxur və ümumiyyətlə həssas reaksiya göstərirlər ($X^2(4)=9.199$, $p<0.05$).

***Diaqram 1.***
*COVID-19-a yoluxmaqdan nə dərəcədə qorxursunuz?*




Qadınlar kişilərə nisbətdə virusa yoluxmaqdan daha az qorxur. 51 yaşdan yuxarı olanların qorxu dərəcəsi digər yaş qruplarına nisbətdə daha aşağı, orta yaş qruplarında isə daha çoxdur. Məşğuliyyət cəhətdən isə, fərdi əmək fəaliyyəti ilə məşğul olanların qorxusu daha yüksək, evdar qadınlar və özəl sektorda işləyənlərdə isə daha azdır.

COVID-19 pandemiyası ilə mübarizə istiqamətində Ümumdünya Səhiyyə Təşkilatının ekspertləri vətəndaşlara profilaktik tədbirlər üçün mütəmadi olaraq müvafiq tövsiyələr təqdim edir.

***Diaqram 2.***
*Özünüzü COVID-19-dan qorumaq üçün nələr edirsiniz? (bütün uyğun variantlar üzrə)*




Respondentlər arasında ən geniş yayılan müdafiə tədbiri kimi şəxsi gigiyenaya diqqət önə çıxır (92.4%). Rəyi öyrənilənlərin 77.5%-i bildirib ki, onlar ciddi ehtiyac olmadıqda evdən bayıra çıxmır ki, bu da karantin rejiminə riayətdən xəbər verir.

Xüsusi qidalara üstünlük verənlərin payı da ümumi seçmədə az deyil (54.5%). Lakin seçmənin yalnız yarıdan az hissəsinin (34.8%) maska taxması, eləcə də, cəmi 3.7%-in evi dezinfeksiya etməsi müəyyən qədər narahatlıq doğurmalıdır. Mümkündür ki, evin dezinfeksiya edilməsinin bu qədər az yayılmasının səbəbi dezinfeksiyanın müəyyən miqdarda vəsait

tələb etməsi, eləcə də, vətəndaşların bu işə biganəliyidir.

COVID-19 pandemiyasına qarşı profilaktik tədbirlərin gender aspektindən dəyərləndirilməsi aşağıdakı nəticələrə gəlməyə əsas verir: Belə ki, qoruyucu maskalardan istifadə edən (müvafiq olaraq qadınlar 42.4%, kişilər 28.8%) və həmçinin ciddi ehtiyac olmadan bayıra çıxmıram deyən qadın respondentlər (83.6%) kişilər (74,6%) ilə müqayisədə daha həssas davranırlar ($X^2(12)=25.249$, $p<0.05$). Sorğu nəticələrini coğrafi baxımdan qiymətləndirsək, qoruyucu maskalardan istifadə və insanların kütləvi olduğu yerlərə getməklə bağlı rəyi öyrənilən şəhər respondentlərinin (müvafiq olaraq 45.3% və 50.5%) kənd (30.7% və 40.1%) və qəsəbə respondentləri (35.0% və 42.6%) ilə müqayisədə daha çox riayət etdikləri müşahidə olunur. ($X^2(12)=75.560$, $p<0.01$). Respondentlərin yaş aralıqları üzrə profilaktik tədbirlərə adekvatlığını müqayisə etsək, qoruyucu maskalardan istifadə üzrə trend 50 yaşdan yuxarı təbəqə üzrə azalma ilə xarakterizə olunur ($X^2(24)=84.291$, $p<0.01$). Bununla yanaşı rəyi öyrənilənlərin içərisində gənclər (16-25 yaş) digər yaş qrupunda təmsil olunan respondentlərlə müqayisədə insanların kütləvi olduğu yerlərə daha çox gedirlər (64.4%). Bu, insanlar arasında "daha az yoluxma riski"nin olması ilə bağlı fikrin yaşlılarla müqayisədə gənclərin arasında daha geniş yayılması ilə əlaqədar ola bilər.

Məsələyə ümumi perspektivdən yanaşdıqda rəyi öyrənilənlərin icra etdikləri profilaktik tədbirlərini əhəmiyyətlilik baxımından 2 (iki) qrupa bölə bilərik. Birinci dərəcəli profilaktik tədbirlər kimi şəxsi gigiyenaya diqqət (92.4%), ciddi ehtiyac olmadıqda evdən bayıra çıxmamaq (77.5%), xüsusi qidalara üstünlük vermək (54.5%) və insanların kütləvi olduğu yerlərə getməmək (44.0%) ön plana çıxır. Digər tərəfdən qoruyucu maskalardan istifadə (34.8%), tibbi spirtdən istifadə (11.6%), immuniteti gücləndirən dərmanların qəbulu (5.2%) və evdə dezinfeksiya (3.7%) kimi tədbirlər ikinci dərəcəli profilaktika kimi qiymətləndirilə bilər.

COVID-19 pandemiyası bir çox insanın gündəlik həyat tərzində ciddi dəyişikliklərə səbəb olub. Əhalinin əhəmiyyətli hissəsinin (79.7%) evdən kənarda keçirdiyi vaxt bu və ya digər dərəcədə azalıb (67.1% "xeyli azalıb", 12.6% "bir qədər" azalıb). Bu göstərici əhalinin "evdə qal" kampaniyasına qoşularaq, pandemiyaya yoluxma və onun yayılma riskinin azaltmasını göstərir. Lakin hər 5 nəfərdən biri (19.2%) üçün sosial təcridolunmadan sonra evdən kənarda kecirdiyi vaxtda hec bir dəyişiklik müşahidə edilməyib. Sorğu nəticələrinin təhlili onu da göstərir ki, hər dörd nəfərdən biri (25.8%) işə getmək üçün evi tərk edir.

Buradan belə nəticəyə gəlmək olar ki, əhalinin müəyyən qisminə birbaşa maddi yardım edilərsə, yaxud, onların aylıq ödənişlərində güzəştlər olarsa, işlə bağlı evi tərk edənlərin sayında azalma müşahidə edilə bilər. Şəhərdə və kəndlərdə məskunlaşan respondentlər (müvafiq olaraq 73.0% və 63.0%-i) evdən kənarda keçirdikləri vaxtda əhəmiyyətli azalmanın olduğu qənaətindən çıxış ediblər. Rəyi öyrənilən respondentlər arasında 65 yaş və ondan yuxarı olan kəsimin 61.1%-i sosial təcridolunmadan sonra evdən kənarda keçirdiyi vaxtlarında əhəmiyyətli azalma müşahidə etdiyini qeyd ediblər.

Əhalinin əksər hissəsi (83%) evdəki vaxtını yerli televiziya kanallarına baxmaqla, dörddə üçündən bir az çox hissəsi isə (67.2%) ev/həyət işləri ilə məşğul olaraq keçirir. Yerli televiziya kanallarına baxanların say yüksəkliyini nəzərə alaraq deyə bilərik ki, daha çox maarifləndirici video çarxlar hazırlayaraq, korona virusu




***Diaqram 3.***
*Siz və ailə üzvləriniz COVID-19- pandemiyası səbəbilə sosial təcridolunmadan sonra evdən kənarda keçirdiyiniz vaxtda dəyişikliklər müşahidə etmisinizmi?*

***Diaqram 4.***
*"Evdə qal" sosial çağırışı çərçivəsində əsas məğuliyyətiniz formalarınızı aşağıdakılardan hansıları təşkil edir (bir neçə variant seçə bilərsiniz)?*



barədə dezinformasiyanın qarşısını almaq olar. Özünütədrislə (onlayn kurslar və s.) və kitab oxumaqla vaxtını dəyərləndirənlər isə təxminən hər 4 nəfərdən birdir (22.7%). Hesab edirik ki, televiziya üzərindən kampaniyalar və təbliğatla özünüinkişaf, tədris və ixtisasartırmaya marağı artırmaq olar ki, insanlar evdəki zamanını daha məhsuldar formada keçirsinlər.

Respondentlərin böyük əksəriyyəti (86.5%) əsasən marketə getmək üçün evdən çıxır. Digər iki əsas səbəb isə aptek (39.4%) və işə (25.8%) getməkdir. Çox az bir hissə olsa da, 5.9% respondent açıq havada gəzmək məqsədilə evdən çıxır. Karantin rejimində işə getdiyini bəyan edən respondentlərin 18.4%-i dövlət sektorunda çalışanları əhatə etdiyi halda, özəl sektorda bu göstərici 23.7% təşkil edir.

Karantin rejimi çərçivəsində epidemiyanın yayılma sürətini nəzarət altında saxlamaq üçün beynəlxalq təcrübədə bir çox tətbiqlər reallaşdırılır.

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah ölkədə COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə xüsusi karantin rejimi çərçivəsində hərəkət məhdudiyyətləri müəyyən edib.

Hərəkət məhdudiyyətlərinin 5 aprel 2020-ci il saat 00:00-dan 20 aprel 2020-ci il saat 00:00-dək xüsusi qaydalar çərçivəsində yaşayış yerini tərk etmək üçün icazə almaq məqsədilə 8103 nömrəsinə SMS məlumat göndərilməsi və müvafiq prosedurlar ilə realaşdırılması nəzərdə tutulur. (SMS məlumatlar ödənişsizdir). SMS məlumatın mətnində aşağıdakı 3 indeksdən biri və şəxsin şəxsiyyətini təsdiq edən məlumat qeyd edilməlidir.

Sözügedən indekslər aşağıdakılardan ibarətdir:

**1 rəqəmi** - təxirəsalınmaz tibbi zərurətlə və ya qrafik üzrə müalicə almaqla əlaqədar yaşayış yerini tərk etmək üçün (icazə rayon və şəhər daxilində 2 saat müddətinə verilir, rayonlar və şəhərlərarası hərəkət zərurəti yarandıqda olduğu ünvanla getməli olduğu ünvan arasında məsafə və müalicə prosedurunun müddəti nəzərə alınır, geri qayıtma müddəti həkim tərəfindən verilən arayışla müəyyən edilir və zərurət olduqda polis əməkdaşlarına təqdim edilir);

**2 rəqəmi** - ərzaq və digər gündəlik tələbat mallarının, habelə dərman vasitələrinin alınması, bank və poçt xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini tərk etmək üçün (icazə 2 saat müddətinə gündə 1 dəfə verilir);

**3 rəqəmi** - yaxın qohumunun dəfnində iştirakla əlaqədar yaşayış yerini tərk etmək üçün.

Sorğu nəticələrinin deskriptiv təhlili bizə onu deməyə əsas verir ki, hökumətin hərəkət məhdudiyyətləri ilə bağlı qəbul etdiyi indekslər əslində ictimai rəy ilə demək olar ki, tamamlanır. Bu isə bu kimi preventiv siyasətlərin düzgün planlaşdırılmasından xəbər verir.

Respondentlərin təxminən yarısının (45.9%) səyahət planı mövcud olmadığından, koronavirus pandemiyasının onlara bu cəhətdən təsiri olmayıb. Lakin hər üç nəfərdən birinin səhayətlə bağlı planları COVID-19 pandemiyası ucbatından ya təxirə salınıb, ya da istiqaməti dəyişdirilib. Maraqlıdır ki, 20.1% respondent koronavirus pandemiyasına rəğmən səyahət planını dəyişdirməyib. Səyahət planını təxirə salanların əsas hissəsi (58.9%-i) şəhər

*Diaqram 5.*
*Siz və ailə üzvləriniz evdən çıxdıqda əsasən nə üçün çıxırsınız?*






*Diaqram 6.*
*COVID-19- səyahətlə bağlı planlarınızı təxirə salmağınıza səbəb oldumu?*

respondentlərindən ibarətdir.

COVID-19- epidemiyasına yoluxmaqdan çox qorxanların 41%-i səyahət planlarını təxirə salanların üçdə birini (32.2%) təşkil edir ($X^2(9)=26.271$ $p<0.01$). Digər tərəfdən COVID-19- un səhayətlə bağlı planlarını təxirə salmadığı qənaətində olan respondentlərin (20.1%) əhəmiyyətli bir hissəsi (47.6%-i) epidemiyaya yoluxmaqdan heç qorxmayan bir kəsimi təşkil edir.

Respondentlərin əhəmiyyətli hissəsi (66.4%) COVID-19 pandemiyasına görə hər hansı qida, gigiyenik vasitələr, dərman preparatları alaraq ehtiyat tədbirləri görmür və bu haqda düşünmür. Bu nəticədən belə qənaətə gəlmək olar ki, rəyi öyrənilənlərin əsaslı hissəsi panikaya qapılaraq, qida və digər məhsulların böyük həcmli alışını həyata keçirmir. Həmçinin, respondentlər qida, gigiyenik vasitələr, dərman preparatları kimi vacib məhsulların satışında hər hansı problem olmayacağı fikrindədir. Rəyi soruşulanların təxminən üçdə bir hissəsi (29.1 %) qida, gigiyenik vasitələr, dərman preparatları alaraq ehtiyat tədbirləri görür.

"COVID-19-a görə hər hansı qida, gigiyenik vasitələr, dərman preparatları alaraq ehtiyat tədbirləri görmüsünüzmü"? sualında xeyr heç bu haqda düşünmürəm deyənlər ümumi respondentlərin əhəmiyyətli hissəsini təşkil edir (66.4%). Ehtiyat tədbirləri gördüklərini bəyan edən respondentlər isə ümumi rəyi öyrənilənlərin 29.1%-ni təşkil edir. Bu kimi təşəbbüsləri icra edəcəyini planlaşdıranlar respondentlərin ancaq 4.5%-ni təşkil edir.

Sorğu nəticələrinin təhlili bizə onu deməyə əsas verir ki, COVID-19 pandemik epidemiyasına yoluxmaqdan heç qorxmayanların 73,9%-i ehtiyat tədbirləri kimi qida, gigiyenik vasitələr və dərman preparatları tədarükünə ehtiyac duymur. Burada diqqət çəkən məqamlardan biri kimi də onu qeyd edə bilərik ki, tədarük haqda düşünməyənlərin 52,6%-i tam orta təhsilli respondentlərdən ibarət olduğu halda, 27.3%-i ali təhsilli respondentlərdən ibarətdir ($X^2(4)=10.840$, $p<0.05$).

Tədarük tədbiri gördüklərini bəyan edənləri müxtəlif kateqoriyalar üzrə təhlil etsək əsas, etibarilə pandemiyaya yoluxmaqdan qorxan təbəqəni (53,1%) təşkil edənlərlə yanaşı, 16-35 yaş aralığında olan respondentlərin çoxluq təşkil etdiyini müşahidə etmiş olarıq.

*Diaqram 7.*
*COVID-19-a görə hər hansı qida, gigiyenik vasitələr, dərman preparatları alaraq ehtiyat tədbirləri görmüsünüzmü?*




Sorğu nəticələrinin təhlilinə digər aspektdən yanaşdıqda qeyd edə bilərik ki, respondentlərin əhəmiyyətli hissəsi (93.9%) karantinə alınmağı həmin şəx-




*Diaqram 8.*
*Aşağıdakı fikirlərlə nə dərəcədə razısınız?*

sin sağlamlığı baxımından olduqca vacib sayır. Digər tərəfdən milli təhlükəsizlik və həmrəylik baxımından rəyi öyrənilənlərin 95.5%-i potensial daşıyıcıların karantinə alınmasını ətrafdakıları qorumaq baxımından önəmli bir tədbir kimi qiymətləndiriblər. Mənzərəni daha detallı təsvir etmək üçün diaqram 8-ə diqqət etmək məqsədəuyğundur.

Pandemiya ilə bağlı cəmiyyətdə formalaşmış miflərdən biri də ondan ibarət idi ki, ölkəmizdə COVID-19 epidemiyası simptomlarını hiss edən əksər vətəndaşlar bu və ya digər səbəblərdən (təqdim edilən tibbi xidmətin keyfiyyəti, yoluxma riski, psixoloji və s.) dövlət tərəfindən müəyyənləşdirilmiş tibb müəssisələrinə müraciət etmirlər.

Sosioloji sorğu nəticələri isə bu mifi demək olar ki, "dağıtdı" . Belə ki, respondentlərin mütləq əksəriyyəti (97.5%) özü və ya yaxınlarında COVID-19- un simptomlarının müşahidə ediləcəyi təqdirdə tibb müəssisəsinə müraciəti qaçınılmaz hesab edib. Bu rəyi isə 2 (iki) faktorla əlaqələndirə bilərik.

Faktorlardan biri kimi "bəli" deyənlərin mütləq əksəriyyətinin (95%) bu kimi halları gizlətmədiklərini hökumət tərəfindən aparılan məqsədyönlü, vətəndaşın sağlamlığının və təhlükəsizliyinin prioritet kimi müəyyənləşdirildiyi dövlət siyasətinə etimad ilə əlaqələndirə bilərik.

Digər kontekstdən respondentlərin rəyləri əsasında söyləyə bilərik ki, ölkə vətəndaşları bu kimi fövqəladə vəziyyətdə dövlətin onlara təqdim etdikləri xidmətlərə yüksək güvən göstərərək kifayət qədər rasional davrana bilirlər. Nəticələrin təhlili bizə onu da deməyə əsas verir ki, vətəndaşların çox cüzi hissəsi (2.5%-i) koronavirusun simptomlarını müşahidə etdiyi halda bunu gizlətməyə çalışır.

Mümkün karantin şəraitində respondentlərin əhəmiyyətli bir hissəsi 40.1%-i hər hansı bir problemlə üzləşmə ehtimalının aşağı olduğu qənaətindən çıxış ediblər.

Bununla yanaşı, rəyi öyrənilənlərin 31%-i ailə üzvlərinin çətinlikə üzləşəcəyi, 13.3%-i karantin şəraitinin qənaətbəxş olmaması və 11.3%-i yoluxma riskinin daha da yüksələcəyi qənaətindən çıxış edib. Tamamilə sosio-psixoloji faktor kimi karantindən sonra insanların onlara münasibətinin neqativ olacağı qənaətindən çıxış edənlər isə ümumi respondentlərin 11.5%-ni təşkil edir.

Məsələyə gender aspektindən yanaşdıqda kişilərin hər hansı problemlə üzləşməyəcəyi qənaətində olmaları müəyyən mənada üstünlük təşkil edir (müvafiq olaraq bu məsələdə kişilər 47.4%, qadınlar isə 32.2%). Digər aspektdən bu iki tərəfin ailə üzvlərinin çətinliklə üzləşə biləcəkləri ilə bağlı qayğılarının yüksək olması qənaətində əsasən qadınlar üstünlük təşkil ediblər (36.4% qadınlar belə düşündüyü halda sadəcə 25.4% kişi bu qənaətdən çıxış edib rəyini bildirib).

Hər iki təsbiti aşağıdakı eyniliklə xarakterizə edə bilərik ($X^2(9)=57.280$, $p<0.01$). Digər tərəfdən COVID-19-a yoluxmaqdan heç qorxmayanların sadəcə 8.4%-i saxlanıldıqları yerin şəraitinin pis olacağı düşüncəsindən çıxış ediblər. Epidemiyaya yoluxmaqdan heç qorxmayan respondentlərin (44.9%) sadəcə 8%-i saxlandığı yerdən (karantin şəraitindən) epidemiyaya yoluxa biləcəyi qənaətindədir. İnsanların bu qənaətə gəlməsi sosial şəbəkələrdə yayılan yanlış informasiyalardan qaynaqlanır. Bu kimi halların qarşısını almaq üçün mövcud karantin şəraitini düzgün və dolğun şəkildə işıqlandırmaq lazımdır.

Sorğu nəticələrinin $X^2$ Testi ilə coğrafi kontekstdən dəyərləndirilməsi heç bir təhdidin olmadığı fikri ilə çıxış edən respondentlərin nəzərəçarpacaq hissəsinin (40.6%-nin) kəndlərdən formalaşdığı tezisini irəli sürməyimizi şərtləndirir. "Ailə üzvlərim çətinliklə üzləşə bilər" fikri isə şəhər (36%) və qəsəbə (34.9%) əhalisində üstünlük təşkil edir ($X^2(18)=46.515$, $p<0.01$). Karantin şəraiti ilə bağlı narahatçılıqlarını ifadə edənlər daha çox şəhər və qəsəbədə yaşayan respondentlərdə təsbit edilmişdir (müvafiq olaraq 14.5% və 16.7%). Kənd yerlərində yaşayan respondentlərin bu istiqamətdə rəyi isə sadəcə 9.2% kimi xarakterizə edilə bilər.

***Diaqram 9.***
*Özünüzdə və ya yaxınlarınızda COVID-19 simptomlarını (öskürək, qızdırma, halsızlıq) hiss etsəniz, tibb müəssisəsinə müraciət edərsinizmi?*



Analoji olaraq saxlanıldığı yerdən yoluxma riski ilə bağlı rəylər isə şəhərdə 13.3%, qəsəbələrdə 10.2% və nəhayət kəndlərdə yaşayan respondentlərin 9.4%-ni təşkil edir ($X^2(18)=46.515$, $p<0.01$).

Sorğu çərçivəsində COVID-19 epidemiyasına yoluxmaqdan çox qorxan 25.6% respondentin müvafiq olaraq 40.5%-i ailə üzvlərinin çətinliklə üzləşəcəyi, 17.3%-i karantin şəraitinin qənaətbəxş olmaması və 16.4%-i isə yoluxma ehtimalı kimi təhdidlərin olma ehtimalını yüksək qiymətləndirib. Son olaraq respondentlərə təqdim edilmiş sual variantlarına münasibətin təhsil səviyyələrinə görə qiymətləndirilməsinin təhlili bizə aşağıdakı fikirləri ön plana çıxarmağa imkan verir. $X^2$ testinə görə, ali təhsilli respondentlər ailə üzvlərinin çətinlikə üzləşəcəyindən daha çox narahatdırlar (38.9%). Müvafiq olaraq bu kəsimin 17.9%-i karantin şəraitinin qənaətbəxş olmaması (yəni saxlanma şəraitindən narahatçılığına görə) fikri ilə də çıxış edib ($X^2(18)=64.143$, $p<0.01$).

Rəyi öyrənilənlərin təxminən üçdə ikisi “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” tərəfindən reallaşdırılan qabaqlayıcı tədbirləri müxtəlif dərəcələrdə səmərəli hesab edir (müvafiq olaraq 45.6% “tam səmərəli” və 17.9% “əsasən səmərəli”). Digər tərəfdən COVID-19 epidemiyasına yoluxmadan çox qorxuram deyənlərin (25,6%) əhəmiyyətli bir hissəsi (43.5%-i) TƏBİB-in fəaliyyətini tam səmərəli hesab edir. ANOVA testinə görə, rəyi öyrənilənlər arasında kəndlərdə məskunlaşanlar TƏBİB-in fəaliyyətini daha çox səmərəli qiymətləndiriblər ($F(2)=5.591$, $p<0.01$). Eynilə ANOVA testinə görə, rəyi öyrənilənlər arasında orta təhsillilər TƏBİB-in fəaliyyətini daha çox səmərəli qiymətləndiriblər ($F(2)=7.115$, $p<0.01$)

Müəyyən qədər narahatedici məqam bundan ibarətdir ki, nəzərəçarpacaq sayda respondent (31.1%) bu suala cavab verməkdə çətinlik çəkib ki, bu da onların TƏBİB-in adıçəkilən istiqamətdəki fəaliyyəti barədə məlumatsızlıqdan qaynaqlana bilər. Digər tərəfdən TƏBİB-in COVID-19 pandemik epidemiyasına qarşı mübarizə tədbirlərinə münasibət bildirməkdə çətinlik çəkən 31.1% respondentin 37.5%-i kənd yerlərini təmsil edir. Eyni zamanda, cavab verməkdə çətinlik çəkənlərin coğrafi strukturunda kəndlərdə rəyi öyrənilənlər 40.3% səviyyəsindədir. Respondentlər arasında ali təhsillilər digər təhsil səviyyəsindəkilərlə müqayisədə cavab verməkdə daha az çətinlik çəkiblər. Belə ki, cavab verməkdə çətinlik çəkən respondentlərin təhsil səviyyələrinə diqqət etsək, müvafiq olaraq orta təhsillilər 32.0%, peşə-ixtisas təhsillilər 36.8% və nəahayət ali təhsillilər 27.3% təşkil edir.

Respondentlərin rəylərinin təhlili bizə onu deməyə əsas verir ki, dövlətin pandemiya ilə bağlı həyata keçirdiyi tədbirlərdən məmnuniyyət ilə TƏBİB-in fəaliyyətinin səmərəli qiymətləndirilməsi arasında müsbət korrelyasiya mövcuddur ($r=0.498$, $p<0.01$). Yəni dövlətin pandemiya ilə bağlı həyata keçirdiyi tədbirləri müsbət qiymətləndirənlər, TƏBİB-in fəaliyyyətini də səmərəli qiymətləndirirlər.

COVID-19 pandemiyası indiki şəraitdə qlobal qeyri-müəyyənliyi əhəmiyyətli dərəcədə şərtləndirir və əgər belə demək mümkündürsə, ciddi katalizator rolunu oynayır. Aparıcı beyin mərkəzlərinin təhlilərinin müxtəlif kombinasiyalarından çıxış edərək COVID-19 epidemiyasının mümkün nəticələrinin dünyanın gələcəyi ilə bağlı yeni düzənin formalaşması göz-




***Diaqram 10.***
*Sizi COVID-19- daşıyıcısı şübhəsi ilə karantinə alsalar hansı çətinliklərlə üzləşə biləcəyinizi ehtimal edirsiniz? (bütün uyğun variantlar)*

***Diaqram 11.***
*Sizcə, TƏBİB COVID-19-a qarşı nə dərəcədə səmərəli mübarizə aparır?*



**Diaqram 12.**
*COVID-19 pandemiyasını ölkəmiz və dünya üçün ciddi təhlükə (təhdid) hesab edirsinizmi?*




ləntilərimizi artırır. Məhz bu istiqamətdə respondentlərin əhəmiyyətli bir hissəsi (85.0%-i) pandemiyanı dünya üçün ciddi təhlükə (təhdid) kimi qiymətləndirir. Heç şübhəsiz Azərbaycanın dünya birliyinə müxtəlif istiqamətlər üzrə inteqrasiyası faktı respondentlərin bu kimi təhlükənin (təhdidin) ölkəmiz üçün də yüksək olduğu qənaətində çıxış etmələrini şərtləndirir (76.1%). Digər tərəfdən müvafiq olaraq respondentlərin 8.6%-i və 18.8%-i dünya və eləcə də ölkəmiz üçün COVID-19- un heç bir təhlükə (təhdid) olmadığı qənaətindədirlər. Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, rəyi öyrənilənlərin təqribən 6.0%-ə qədər isə bu suala cavab verməkdə çətinlik çəkdiklərini bildiriblər.

Bütün hallarda yerli və eləcə də qlobal miqyasda aparılan sosioloji sorğu nəticələri COVID-19 pandemiyasını qlobal və lokal kontekstdən ciddi təhdid kimi qiymətləndirirlər.

Respondentlərin mütləq əksəriyyəti (93%) dövlətin koronavirusla bağlı həyata keçirdiyi tədbirləri müsbət qiymətləndirir və yetərli olduğunu düşünür (79.6% "tam" yetərli, 13.4 % "qismən yetərli") hər altı nəfərdən biri isə qismən dəstəkləyir. Beləliklə, hazırda görülən tədbirlərə vətəndaşlar tərəfindən sosial dəstəyin olduğunu deyə bilərik. Təhlillər onu göstərir ki, respondentlərin yaşı artdıqca dövlətin pandemiyaya qarşı həyata keçirdiyi qabaqlayıcı tədbirlərə razılıq səviyyəsi də yüksəlir.

COVID-19 pandemiyasının təsirlərinin minimumlaşdırılması sahəsində reallaşdırılan anti-böhran strategiyalarının əsas fəlsəfəsi Vətəndaş - Dövlət - Biznes əməkdaşlığı formatının üzərində qurulmalıdır.

Dövlətin pandemiyaya qarşı qabaqlayıcı tədbirlərini yetərli hesab edənlərin içərisində 16-25 yaş aralığında təmsil olunan respondentlərin 75.6%-i "tam yetərli" hesab etdiyi halda, digər yaş qruplarında olan respondentlər isə reallaşdırılan dövlət tədbirlərini 81%-88% aralığında "tam yetərli" qiymətləndirir ($X^2(8)=17.041$, $p<0.05$).

Karantin rejimi və ümumiyyətlə COVID-19 pandemiyası artıq qeyd etdiyimiz kimi istər milli, istərsə də qlobal səviyyədə səhiyyə böhranı (şokları) ilə yanaşı, sosial-iqtisadi böhranın dərinləşməsini də şərtləndirir. Məhz bu səbəbdəndir ki, rəyi soruşulanlar müvafiq olaraq karantin rejiminin uzanmasının əsasən aşağıdakı təhdidləri dərinləşdirəcəyi qənaətindədirlər. İlk olaraq qeyd etmək istərdik ki, rəyi öyrənilən respondentlərin 16.5%-i COVID-19 epidemiyasından qaynaqlanan hər hansı bir sosial-iqtisadi təhdidin olmadığı qənaətindən çıxış edib. Bununla yanaşı respondentlərin rəyi əsasında yüksək risk qrupu kimi 39.6%-in istehlak məhsullarının qiymət artımı (potensial inflyasiya ehtimalı), 36.2%-in günəmuzd işləyənlərin gəlirlərinin azalması və nəhayət 33.7%-in kredit və kirayə ödənişləri üzrə çətinliklərin yaranacağı ehtimallarını söyləyənləri qruplaşdıra bilərik.

Təhlillər göstərir ki, günəmuzd işləyənlərin gəlir səviyyəsində azalma ehtimalının yüksələcəyi qənaətindən çıxış edən 36.2% respondentin əhəmiyyətli hissəsi orta və peşə-ixtisas təhsillilərdən ibarətdir (müvafiq olaraq 42.6% və 40.3%). Ali təhsilli respondentlərin isə 30.1%-i bu qənaətdən çıxış edib. Analoji tendensiya aylıq kredit və kirayə ödənişləri etməkdə çətinlik çəkəcəkləri gümanında olan respondentlərə (33.7%) də aiddir (müva-

**Diaqram 13.**
*Dövlətin COVID-19-la bağlı həyata keçirdiyi tədbirləri nə dərəcədə yetərli hesab edirsiz?*






***Diaqram 14.*** *Movcud karantin rejimi davam edərsə, bunun hansı sosial-iqtisadi təsirləri ola bilər? (bütün uyğun variantlar üzrə)*

fiq olaraq orta təhsilli 37.6%, peşə-ixtisas təhsilli 37.2% və ali təhsilli 28.4%).

Digər bir alt təhdid kimi istehlak məhsullarının qiymət artımını qeyd edən 39.6% respondent bütün təhsil səviyyələrində təxminən eyni tezliklə fikir bildiriblər. $X^2$ Testinə əsaslanaraq eyniliyi qeyd edə bilərik ($X^2(18)=57.760$, $p<0.01$). Respondentlərin coğrafi mövqeyindən baxsaq, yüksək risk qrupuna daxil olan istiqamətlər üzrə verilən rəylərdə elə ciddi fərq müşahidə edilmir. Fərdi əmək fəaliyyəti ilə məşğul olan respondentlərin 86.8%-i gəlirlərinin azalma riskini yüksək qiymətləndirirlər.

Dövlət sektorunda çalışanların 68.8%-i isə digər sektorda çalışanlarla müqayisədə istehlak mallarının qiymət artımı ehtimalını əsasən yüksək qiymətləndiriblər. Aşağı risk qrupuna isə 15.7%-lə özüm və ailə üzvlərimin özəl sektorda çalışdığı səbəbilə əmək haqqlarında yarana biləcək problemlərin olduğunu, 6.0%-lə işim xarici ölkə ilə bağlı olduğuna görə ticarətdə problemlərin yaranacağı və 5.6%-lə alıcılıq qabiliyyəti aşağı düşdüyündən dolayı qiymətlərin enməsi rəylərini əsaslandıran fikirləri qeyd edə bilərik.

Özəl sektorda çalışan respondentlərin (58.4%-i) neqativ rəyi isə əmək haqlarının alınması istiqamətində gecikmələrin olması ehtimalını yüksək dəyərləndirmələri istiqamətindədir ($X^2(49)=179.197$, $p<0.01$). İşlərinin əsasən xariclə bağlı olduğundan dolayı ticarətlərində problemlərlə üzləşəcəklərini söyləyən 6% respondent üçün təhsil səviyyəsinə görə, orta təhsilli kəsim (61.0%-lə) ilk sırada qərarlaşmışdır ($X^2(18)=57.760$, $p<0.01$).

Burada xüsusilə ölkə başçısının 19 mart 2020-ci il tarixli müvafiq sərəncamının cari vəziyyət üçün kifayət qədər dəqiq təsbitlərə əsaslanan və strateji konturları iqtisadiyyatda baş verə biləcək neqativ tendensiyaların minimumlaşdırılmasına yönəlik çağırışları özündə əks etdirdiyini qeyd etmək yerinə düşərdi.

Rəyi soruşulanların əksəriyyəti (87.8%) mövcud vəziyyətlə bağlı hər hansı problemlə qarşılaşacağı təqdirdə dövlətin onlara dəstək göstərəcəyinə əmindir. Repondentlərin coğrafi yerləşməsi baxımından (şəhər respondentlərinin 87.0%-i, qəsəbə respondentlərinin 86.6%-i və nəhayət kənddə rəyi öyrənilən respondentlərin 89.2%-i) dövlət dəstəyi ilə bağlı gözləntiləri yüksək olmaqla elə də ciddi bir fərq müşahidə edilmir. Dövlətin COVID-19 pandemiyasının təsirlərini minimumlaşdırmaq istiqamətində həyata keçirdiyi tədbirləri tam yetərli hesab edən 79.6% respondentin mütləq əksəriyyəti (92.3%) potensial problemlərlə bağlı dövlət dəstəyinin göstəriləcəyinə inanırlar.

Prezident tərəfindən mövcud pandemiya ilə bağlı həyata keçirilən tədbirlər vətəndaşların bu fikirdə olmasının əsas səbəblərindən biridir. Ölkə başçısı tərəfindən pandemiya ilə bağlı tədbirlərin ilkin

***Diaqram 15.***
*Mövcud vəziyyətdə hər hansı problemlə qarşılaşdığınızda, dövlətin Sizə dəstək göstərəcəyinə inanırsınızmı?*




mərhələsində atılan operativ və adekvat addımlar sayəsində digər ölkələrlə müqayisədə Azərbaycanda vəziyyəti daha qənaətbəxş hesab etmək olar.

Prezidentin göstərişi ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması, karantin məhdudiyyətlərinin tətbiq edilməsi, xüsusi rejimin qanunverici əsaslarının Milli Məclis tərəfindən təmin edilməsi, koronavirusla bağlı vəziyyətin davamlı monitorinq edilməsi - bütün bu proseslərin birbaşa Prezidentin nəzarəti altında həyata keçirilməsi ölkə vətəndaşlarının sağlamlığının qorunması baxımından çox əhəmiyyətlidir. Sadalananların fonunda diqqətçəkən əsas məqamlardan biri də odur ki, bu istiqamətdə atılan addımlar özündə iti məntiq və peşəkar idarəetmə ilə yanaşı, humanizm prinsiplərini də birləşdirir. Dövlət başçısının Koronovirusla Mübarizəyə Dəstək Fondunu yaratması, Prezidentin və I Vitse-prezidentin illik maaşlarını bu Fonda yardım məqsədilə köçürməsi buna bariz nümunədir. Ölkə rəhbərliyi tərəfindən atılan bu addımlar əhalidə sosial məsuliyyət hissinin daha da yüksəlməsinə və bu ümumilli prosesə qoşulmasına səbəb oldu.

## NƏTİCƏ

COVID-19 epidemiyasının pandemiyaya qədər ki, çızdığı trayektoriyaya diqqət etsək bu zaman intervalında hadisələrə milli və beynəlxalq səviyyədə verilən reaksiyalar diqqət çəkir. 31 dekabr 2019-cu ildə Çinin Vuhan əyalətində rəsmilərin Ümumdünya Səhiyyə Təşkilatına ölkədə səhiyyə işçilərinin səbəbi bilinməyən presidentsiz bir pnevmaniya olan onlarla xəstəni müalicə edildiyini bildirməsi ilə başlayan proses sürətli bir şəkildə qloballaşmanın da yaratdığı “sinxronlaşma” effekti ilə bütün dünyanı cənginə aldı.

Bu və ya digər səbəblərdən dolayı 28 fevral 2020-ci ilə qədər aidiyyatı beynəlxalq təşkilatların epidemiya (COVID-19) riski göstəricisini “yüksək”-dən “çox yüksəyə” qaldıraraq xəstəliyin pandemiya potensialının olduğunu vurğuladılar. Nəhayət 11 mart 2020-ci il tarixində Ümümdünya Səhiyyə Təşkilatı virusunun yayılma sürəti, ciddiyyəti və siyasət idarəedicilərinin yetərincə qabaqlayıcı tədbirlər almadıqlarını əsas gətirərək COVID-19-u pandemik bir xəstəlik elan etdi.

Diqqət çəkən məqamlardan biri də ondan ibarətdir ki, səhiyyə böhranı paralelində qlobal iqtisadiyyatın “dayanması”na səbəb olaraq milli iqtisadiyyatlar qarşısında dərin iqtisadi böhran üçün də katolizator funksiyası oynayır. Beynəlxalq təcrübəni təhlil edərkən ölkələrin yaranmış vəziyyətlə əlaqədə üç fərqli siyasət strategiyası izlədiyini qeyd edə bilərik.

Bunlardan birincisi, ölkəmiz də başda olmaqla əksər dövlətlərin həyata keçirdikləri və səhiyyə təhlükəsizliyinin ön planda sosial-iqtisadi təhlükəsizliyin isə müqayisədə paralel planda saxladıqları strateji kursdur. İkinci siyasət strategiyası isə “Kütlə immuniteti” yanaşmasıdır ki, bunu tətbiq etməyi bəyan edən ölkələr son anda birinci strategiyaya müraciət etməyi məqbul gördülər (Böyük Britaniya, İsveç və s.). Nəhayət üçüncü qrup siyasət strategiyası isə Belarusiya nümunəsində iqtisadi təhlükəsizliyi açıq şəkildə ön planda saxlamağı məqbul hesab edən kursdur.

Beynəlxalq təşkilatlar və beyin mərkəzlərinin hesabatlarında ölkəmizin dövlət başçısının çevik və eləcə də qətiyyətli qərarları sayəsində pandemiya ilə mübarizə sahəsində “Uğur Model”i kimi dəyərləndirilir. Model kimi qiymətləndirilən qabaqlayıcı siyasətin əsas determinantları kimi pandemiyadan qaynaqlanan risklərin digər ifadə ilə “pandemiya əyrisinin yastılaşdırılması”, digər tərəfdən “iqtisadi epidemiyaları” zərərsizləşdirmək məqsədilə iqtisadi durğunluq əyrisinin bəlli zaman intervalında yastılaşdırılması konteksində həyata keçirilən makroiqtisadi siyasət strategiyalarının (dövlət dəstəyi və sosial paketlərin) dövriyyəyə daxil edilməsidir.

Sözügedən dövlət dəstəyi “Koronavirus (COVİD-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” Prezident Sərəncamında aidiyyəti üzrə özündə bilavasitə aşağıdakı istiqamətləri ehtiva edir:

- İqtisadi artıma, sahibkarlığa əsas dəstək alətləri
- Fərdi (mikro) sahibkarlara maliyyə dəstəyi;
- Sahibkarlıq subyektlərinə vergi güzəştləri, imtiyazları və müvafiq tətil proqramları
- Yeni verilən bank kreditləri və eləcə də mövcud kredit portfeli üzrə kredit-zəmanət dəstəyi
- Muzdlu işçilərin əməkhaqlarının ödənilməsi üzrə maliyyə dəstəyi
- Əhalinin maddi vəziyyətinin dəstəklənməsi üçün sosial paket
- Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsilhaqqı xərclərinin ödənilməsinə dəstək
- İpoteka və kredit zəmanət mexanizminə maliyyə dəstəyi
- Əhalinin elektrik enerjisinin istehlakı üzrə kommunal ödənişlərə dəstək
- Həyati vacib sərnişindaşıma fəaliyyəti sahələrinə dəstək

Məhz bu strateji istiqamətlər üzrə dövlət tərəfindən 2.5 mlrd manat vəsait ayrılmışdır ki, buda ÜDM-in 3.0%-ni təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamının 10.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti tərəfindən 4 aprel 2020-ci iltarixiində Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planı üç istiqaməti - iqtisadi artıma və sahibkarlığa dəstəyi, məşğulluq və sosial rifaha dəstəyi, makroiqtisadi və maliyyə sabitliyini əhatə edir.

İlkin mərhələdə hökümət tərəfindən aşağıdakı istiqamətlər üzrə fəaliyyət

mexanizmləri reallaşdırılmaqdadır:

1. İşyerlərinin və sosial sabitliyin qorunması istiqaməti üzrə

2. İqtisadi fəallığın qorunmasına vergi stimullarının verilməsi istiqaməti üzrə

Sosial Tədqiqatlar Mərkəzi tərəfindən 19-28 mart 2020-ci il tarixlərində ölkə miqyasında həyata keçirilən sosioloji sorğunun əsas nəticələri aşağıdakılardan ibarətdir:

❑ COVID-19-a yoluxmaqdan qorxanlarla (53.1%) qorxmayanların (44.9%) nisbəti demək olar ki, bərabərdir. COVID-19-a yoluxmaqdan qorxanların 25%-i çox qorxurduğu halda, 27.5%-i isə az qorxur.

❑ Qadınlar kişilərə nisbətdə virusa yoluxmaqdan daha az qorxur. 51 yaşdan yuxarı olanların qorxu dərəcəsi digər yaş qruplarına nisbətdə daha aşağı, orta yaş qruplarında isə daha çoxdur.

❑ Tam orta təhsilli respondentlər (51.2%) ali təhsillilərlə (27.3%) müqayisədə virusa yoluxma ehtimalından daha çox qorxurlar.

❑ Şəhər respondentləri (57.4%) qəsəbə (15.2%) və kənd (27.4%) respondentləri ilə müqayisədə COVID-19-a yoluxma riskindən daha çox qorxur və ümumiyyətlə həssas reaksiya göstərirlər.

❑ Respondentlər arasında ən geniş yayılan müdafiə tədbiri kimi şəxsi gigiyenaya diqqət önə çıxır (92.4%). Rəyi öyrənilənlərin 77.5%-i ciddi ehtiyac olmadıqda evdən bayıra çıxmır ki, bu da karantin rejiminə riayətdən xəbər verir. Həmçinin, qeyd etmək lazımdır ki, qadınlar (83.6%) bu məsələyə kişilərlə müqayisədə (74.6%) daha həssas yanaşaraq ciddi ehtiyac olmadıqda evdən bayıra çıxmırlar.

❑ Respondentlərin 54.5%-i virusa yoluxmaqdan qorunmaq üçün xüsusi qidalara üstünlük verir.

❑ Respondentlərin təxminən üçdə biri (34.8%) maska taxdığı halda, yalnız 3.7% evlərini dezinfeksiya edir ki, bu məqam müəyyən qədər narahatlıq doğurur. Belə ki, qoruyucu maskalardan istifadə edənlər arasında qadınlar üstünlük təşkil edir (müvafiq olaraq qadınlar 42.4%, kişilər 28.8%). Qoruyucu maskalardan istifadə üzrə trend 50 yaşdan yuxarı təbəqə üzrə azalma ilə xarakterizə olunur. Gənclər və orta yaş əhali kateqoriyası qoruyucu maskadan daha çox istifadə edir.

❑ Sorğu nəticələrini coğrafi baxımdan qiymətləndirsək, qoruyucu maskalardan istifadə və insanların kütləvi olduğu yerlərə getməklə bağlı məsələlərə şəhərdə yaşayanların kənd və qəsəbədə yaşayanlarla müqayisədə daha çox riayət etdikləri müşahidə olunur.

❑ Bununla yanaşı, rəyi öyrənilənlərin içərisində gənclər (16-25 yaş) digər yaş qrupunda təmsil olunan respondentlərlə müqayisədə insanların kütləvi olduğu yerlərə daha çox gedirlər (64.4%). Bu insanlar arasında virusa gənclərin daha az yoluxma fikrinin geniş yayılması ilə də bağlı ola bilər.

❑ Koronavirus pandemiyasından sonra respondentlərin əhəmiyyətli hissəsinin (79.7%) evdən kənarda keçirdiyi vaxt bu və ya digər dərəcədə azalıb. Bu göstərici əhalinin "evdə qal" kampaniyasına qoşularaq, xəstəliyə yoluxma və onun yayılma riskini azaltmasını göstərir.

❑ Rəyi öyrənilən respondentlər arasında 65 yaş və ondan yuxarı olan kəsimin 61.1%-i sosial təcridolunmadan sonra evdən kənarda keçirdiyi vaxtlarında əhəmiyyətli azalma müşahidə etdiyini qeyd ediblər.

❑ Lakin hər 5 nəfərdən biri üçün (19.2%) vaxt müddətində hər hansı dəyişiklik olmayıb ki, bu da əhalinin müəyyən hissəsinin sosial təcridolunma prinsiplərinə bilərəkdən, və ya məcburən (məsələn, işlə bağlı) əməl etmədiyinə, yaxud edə bilmədiyinə dəlalət edir.

❑ Respondentlərin əksər hissəsi (83%) evdəki vaxtını yerli televiziya kanallarına baxmaqla, dörddə üçündən biraz çox hissəsi (67.2%) isə ev/həyət işləri ilə məşğul olaraq keçirir.

❑ Yerli televiziya kanallarına baxanların yüksək sayını nəzərə alaraq deyə bilərik ki, daha çox maarifləndirici video çarxlar hazırlayaraq, korona virusu barədə dezinformasiyanın qarşısını almaq olar. Özünütədrislə (onlayn kurslar və s.) və kitab oxumaqla vaxtını dəyərləndirənlər isə

təxminən hər 4 nəfərdən birdir (22.7%). Hesab edirik ki, televiziya üzərindən kampaniyalar və təbliğatla özünüinkişaf, tədris və ixtisasartırmaya marağı artırmaq olar ki, insanlar evdəki zamanını daha məhsuldar formada keçirsinlər.

❑ Nəzərə çatdıraq ki, evdən çıxanların əksəriyyəti (86.5%) marketə getmək üçün bunu edir. Daha sonra insanlar əsasən apteke (39.4%) və işə getmək üçün (25.8%) evdən çıxırlar.

❑ Hər dörd nəfərdən birinin işə getmək üçün evi tərk etməsi diqqət olunmalı məqamdı. Buradan belə nəticəyə gəlmək olar ki, əhalinin müəyyən qisminə birbaşa maddi yardım edilərsə, yaxud, onların aylıq ödənişlərində güzəştlər olarsa, işlə bağlı evi tərk edənlərin sayında azalma müşahidə edilə bilər.

❑ Respondentlərin əsaslı hissəsi (66.4%) koronavirusa görə hər hansı qida, gigiyenik vasitələr, dərman preparatları alaraq ehtiyat tədbirləri görmür və heç bu haqda düşünmür. Bu nəticədən belə qənaətə gəlmək olar ki, vətəndaşların əsaslı hissəsi panikaya qapılaraq, qida və digər məhsulların böyük həcmli alışını həyata keçirmir. Həmçinin, insanların qida, gigiyenik vasitələr, dərman preparatları kimi vacib məhsulların satışında hər hansı problem olmayacağını hesab etməsini də deyə bilərik.

❑ Sorğu nəticələrinin təhlili onu deməyə əsas verir ki, 44.9% COVID-19 pandemik epidemiysına yoluxmaqdan heç qorxmayanların əhəmiyyətli hissəsi (73,9%) ehtiyat tədbirləri kimi qida, gigiyenik vasitələr və dərman preparatları tədarükünə ehtiyac duymur.

❑ Respondentlərin təxminən üçdə bir hissəsi (29.1%) qida, gigiyenik vasitələr, dərman preparatları alaraq ehtiyat tədbirləri görüb.

❑ Respondentlərin təxminən yarısının (45.9%) səyahət planı mövcud olmadığından, koronavirus pandemiyasının onlara bu cəhətdən təsiri olmayıb. Lakin hər üç nəfərdən birinin (34.1%) səhayətlə bağlı planları COVID-19 pandemiyası ucbatından ya təxirə salınıb, ya da istiqaməti dəyişdirilib. Səyahət planını təxirə salanların əsas hissəsi (58.9%-i) şəhər respondentlərindən ibarətdir.

❑ Maraqlıdır ki, 20.1% respondent koronavirus pandemiyasına rəğmən səyahət planını dəyişdirməyib.

❑ Respondentlərin mütləq əksəriyyəti (93.9%) karantinə alınmağı həmin şəxsin sağlamlığı baxımından olduqca vacib sayır. Digər tərəfdən milli təhlükəsizlik və həmrəylik baxımından bir o qədər respondent də (95.5%) potensial daşıyıcıların karantinə alınmasını ətrafdakıları qorumaq baxımından önəmli bir tədbir kimi qiymətləndiriblər.

❑ Respondentlərin mütləq əksəriyyəti (97.5%) özündə və ya yaxınlarında COVID-19-un simptomlarının müşahidə ediləcəyi təqdirdə tibb müəssisəsinə müraciəti qaçınılmaz hesab ediblər. Bu rəyi isə 2 (iki) faktorla əlaqələndirə bilərik. Faktorlardan biri kimi bəli deyənlərin mütləq əksəriyyətinin (95%-nin) bu kimi halları gizlətmədiklərini hökümət tərəfindən aparılan məqsədyönlü, vətəndaşın sağlamlığı və təhlükəsizliyinin prioritet kimi müəyyənləşdirildiyi dövlət siyasətinə etimad ilə əlaqələndirə bilərik. Digər kontekstdən respondentlərin rəyləri əsasında söyləyə bilərik ki, ölkə vətəndaşları bu kimi fövqəladə vəziyyətdə dövlətin onlara təqdim etdikləri xidmətlərə yüksək güvən göstərərək kifayət qədər rasional davrana bilirlər.

❑ Respondentlərin əhəmiyyətli bir hissəsi (40.1%) mümkün karantin şəraitində hər hansı bir problemlə üzləşmə ehtimalının aşağı olduğu qənaətindən çıxış edib. Bununla yanaşı, rəyi öyrənilənlərin 31%-i ailə üzvlərinin çətinliklə üzləşəcəyi, 13.3%-i karantin şəraitinin qənaətbəxş olmaması və 11.3%-i yoluxma riskinin daha da yüksələcəyi qənaətindən çıxış edib. Tamamilə sosio-psixoloji faktor kimi karantindən sonra insanların onlara münasibətinin neqativ olacağı qənaətindən çıxış edənlər isə ümumi respondentlərin 11,5%-ni təşkil edir.

❑ Rəyi öyrənilənlərin təxminən üçdə ikisi (63.5%) "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" tərəfindən reallaşdırılan qabaqlayıcı tədbirləri müxtəlif dərəcələrdə səmərəli hesab edir (müvafiq olaraq 45.6% "tam səmərəli" və 17.9% "əsasən səmərəli"). Dövlətin koronavirusla bağ-

lı həyata keçirdiyi tədbirləri müsbət qiymətləndirənlər TƏBİB-in fəaliyyətini də səmərəli qiymətləndirirlər.

- Müəyyən qədər narahatedici məqam bundan ibarətdir ki, nəzərəçarpacaq sayda respondent (31.1%) bu suala cavab verməkdə çətinlik çəkib ki, bu da onların TƏBİB-in adıçəkilən istiqamətdəki fəaliyyəti barədə məlumatsızlıqdan qaynaqlana bilər. TƏBİB-in COVID-19-a pandemik epidemiysına qarşı mübarizə tədbirlərinə münasibət bildirməkdə çətinlik çəkənlər içərisində kənd yerlərində yaşayanlar üstünlük təşkil edir.

- Respondentlərin əhəmiyyətli bir hissəsi (85%) pandemiyanı dünya üçün ciddi təhlükə (təhdid) kimi qiymətləndirdiyi halda, Azərbaycanla bağlı bu göstərici 76.1%-dir.

- Bütün hallarda yerli və eləcə də qlobal miqyasda aparılan sosioloji sorğu nəticələri onu deməyə əsas verir ki, insanlar COVID-19 pandemiyasını qlobal və lokal kontekstdə ciddi təhdid kimi qiymətləndirirlər.

- Əhalinin mütləq əksəriyyəti (93%) dövlətin koronavirusla bağlı həyata keçirdiyi tədbirləri müsbət qiymətləndirir və yetərli olduğunu düşünür (79.6% "tam yetərli, 13.4% "qismən yetərli"). Bu nəticəyə əsasən hazırda görülən tədbirlərə vətəndaşlar tərəfindən sosial dəstəyin olduğunu deyə bilərik.

- Rəyi öyrənilənlərin 16.5%-i COVID-19 epidemiyasından qaynaqlanan hər-hansı bir sosial-iqtisadi təhdidin olmayacağı qənaətindədir. Bununla yanaşı, respondentlərin rəyi əsasında yüksək risk qrupu kimi 39.6%-in istehlak məhsullarının qiymət artımı (potensial inflyasiya ehtimalı), 36.2%-in günəmuzd işləyənlərin gəlirlərinin azalması və nəhayət 33.7%-in kredit və kirayə ödənişləri üzrə çətinliklərin yaranacağı ehtimallarını söyləyənləri qruplaşdıra bilərik. 15.7% respondent özü və ailə üzvləri özəl sektorda çalışdığı səbəbilə əmək haqlarında yarana biləcək problemlərin olacağı fikrindədir.

- Respondentlərin böyük əksəriyyəti (87.9%) mövcud vəziyyətlə bağlı hər hansı problemlə qarşılaşacağı təqdirdə dövlətin onlara dəstək göstərəcəyinə əmindir. Dövlətin COVID-19 pandemiyasının təsirlərini minimumlaşdırmaq istiqamətində həyata keçirdiyi tədbirləri tam yetərli hesab edənlərin mütləq əksəriyyəti (92.3%) potensial problemlərlə bağlı dövlət dəstəyinin göstəriləcəyinə inanırlar.

## QEYDLƏR

## QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan AZ1006, Bakı, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69;

www.stm.az info@stm.az